Qəbul edilmə tarixi: 24 mart 2017
Dərc edilmə tarixi: 28 iyun 2017

**İctimai**
**GrecoRC3(2017)4**

**Üçüncü Dəyərləndirmə Raundu**

# Azərbaycan üzrə İkinci Uyğunluq Hesabatına dair İkinci əlavə

**“Kriminallaşdırma (ETS 173 və 191, GPC 2)”**

* * *

**”Siyasi partiyaların maliyyələşdirilməsində şəffaflıq”**

GRECO-nun 75-ci
Plenar İclasında qəbul edilmişdir.
(20-24 Mart 2017-ci il, Strasburq şəhəri)

GRECO Secretariat
Council of Europe
www.coe.int/greco

F-67075 Strasbourg Cedex
☎ +33 3 88 41 20 00
Fax +33 3 88 41 39 55

Directorate General I
Human Rights and Rule of Law
Information Society and Action
against Crime Directorate

## I.Müqəddimə

1. İkinci Uyğunluq Hesabatına ikinci əlavə GRECO-nun Azərbaycan üzrə Üçüncü Raund Dəyərləndirməsində verilmiş tövsiyələrlə bağlı İkinci Uyğunluq Hesabatına dair əlavənin qəbulundan sonra Azərbaycan hökuməti tərəfindən həyata keçirilən tədbirləri qiymətləndirir. Mövzular aşağıdakılardır:

- **Mövzu I – Kriminallaşdırma: "**Korrupsiyaya görə cinayət məsuliyyəti haqqında Konvensiyanın" (ETS 173), 1a and 1b maddələri, 2-12, 15-17, 19-cu maddənin 1-ci bəndi, Konvensiyaya əlavə protokolun 1-6-cı maddələri və 2-ci Rəhbər Qaydanı əhatə edir (korrupsiyanın kriminallaşdıırlması).

- **Mövzu II – Partiyaların maliyyələşməsində şəffaflıq:** Siyasi partiyaların və seçki kampaniyalarının maliyyələşdirilməsində Korrupsiyaya qarşı Ümumi Qaydalar üzrə Tövsiyənin (2003)4 8, 11, 12, 13b, 14 və 16-cı maddələri - ümumi şəkildə - (siyasi partiyaların və seçki kampaniyalarının maliyyələşdirilməsinə dair) 15-ci Rəhbər Qaydanın tələblərini əhatə edir.

2. Üçüncü Raund Dəyərləndirmə Hesabatı GRECO-nun 48-ci Plenar İclasında (2010-ci ilin 1 oktyabr tarixdə) qəbul edilmiş və 2010-ci il 18 noyabr tarixdə isə Azərbaycanın razılığı ilə ictimaiyyətə açıqlanmışdır (Greco Eval III Rep (2010) 2E, Theme I and Theme II). Növbəti Uyğunluq Hesabatı isə GRECO-nun 57-ci Plenar İclasında (2012-ci il 19 oktyabr tarixdə) qəbul edilmiş və 2013-cü il 08 yanvar tarixdə ictimaiyyətə açıqlanmışdır (Greco RC-III (2012) 12E). İkinci Uyğunluq Hesabatı GRECO-nun 65-ci Plenar İclasında (2014-cü il tarixdə 10 oktyabr) qəbul edilmiş və 2015-ci il 02 aprel tarixdə ictimaiyyətə açıqlanmışdır (Greco RC-III (2014) 13E), 2016-cı il 14 mart tarixdə isə İkinci Uyğunluq Hesabatı üzrə qəbul edilmiş əlavədə (Greco RC-III (2015) 20E), GRECO I Mövzu üzrə - Kriminallaşdırma - yeddi tövsiyənin qənaətbəxş həyata keçirilməsini və iki tövsiyənin qismən icra edilməsini bildirmişdir. II Mözvu üzrə - Partiyaların maliyyələşməsində şəffaflıq - iki tövsiyənin qənaətbəxş, beş tövsiyənin qismən icra edilməsini və bir tövsiyənin isə icra edilməməsini göstərmişdir. Nəzərə alınmalıdır ki, partiyaların maliyyələşdirilməsi ilə bağlı səkkiz tövsiyədən yalnız iki tövsiyə tam icra edilmişdir və GRECO digər tövsiyələr ilə bağlı əlavə məlumatların təqdim etməsini xahiş etmişdir. Qeyd olunan əlavə məlumat 2017-ci il 13 yanvar tarixdə təqdim edilmişdir.

3. İkinci Uyğunluq Hesabatına dair ikinci əlavənin məqsədi, GRECO-nun prosedur qaydalarının 31-ci maddəsinin 9-cu bəndinə uyğun olaraq, Azərbaycan hökumətinin təqdim etdiyi ən son məlumatlara müvafiq olaraq tövsiyələrin icra vəziyyətini qiymətləndirməkdir.

4. GRECO uyğunluq prosesinə müvafiq olaraq məruzəçilərin təyin edilməsini İspaniya və Lixtenşteynə tapşırmışdır. İkinci Uyğunluq Hesabatına əlavəni qiymətləndirilməsi üzrə məruzəçilər Lixtenşteyn adına cənab Patrik Ritter və İspaniya adına isə Rafel Vailo Ramos təyin olunmuşlar. GRECO-nun Katibliyi İkinci Uyğunluq Hesabatına dair ikinci əlavənin hazırlanmasında məruzəçilərə dəstək vermişdir.

## II. Təhlil

### Mövzu I: Kriminallaşdırma

5. GRECO xatırladır ki, Dəyərləndirmə Hesabatının bu mövzusu üzrə Azərbaycana 9 tövsiyə verilmişdir. Növbəti Uyğunluq Hesabatında GRECO müəyyən etmişdir ki, i, ii, iv,

v, vi, viii və ix tövsiyələr tam icra olunmuş, iii və vii tövsiyələr isə qismən icra olunmuşdur. Həmin tövsiyələrin cari icra vəziyyəti aşağıda açıqlanır.

**Tövsiyə iii.**

6. *GRECO tövsiyə etmişdir ki, Korrupsiyaya görə cinayət məsuliyyəti haqqında Konvensiyaya Əlavə Protokol (ETS 191) mümkün qədər tez bir müddətdə imzalanıb ratifikasiya edilsin və həmin Protokolun 2,3,4,5 və 6-cı maddələrinə uyğun olaraq yerli və xarici andlı iclasçı və arbitrlərin aktiv və passiv korrupsiya cinayətləri kriminallaşdırılsın.*

7. GRECO xatırlayır ki, bu tövsiyə əvvəlki hesabatda qismən icra edilmişdir. Bu tövsiyəyə müvafiq olaraq, Azərbaycan 2013-cü ilin avqust ayında qüvvəyə minmiş "Korrupsiyaya görə cinayət məsuliyyəti haqqında Konvensiyaya Əlavə Protokolu" (bundan sonra - ETS 191) ratifikasiya etmiş, lakin Azərbaycan Respublikasının Cinayət Məcəlləsində qeyd edilən "xarici və yerli arbitraj məhkəmələrinin arbitrləri" anlayışı ETS 191-nin 1-ci maddəsinin 2-ci bəndində göstərilən arbitrləri, o cümlədən arbitraj məhkəməsindən kənar arbitraj müqaviləsi əsasında fəaliyyət göstərən arbitrləri tam əhatə etmir. GRECO həmçinin qeyd etmişdir ki, Cinayət Məcəlləsinin 308-ci maddəsi öz səlahiyyətlərini Azərbaycanın qanunvericiliyinə uyğun həyata keçirməyən arbitrları da əhatə etsin.

8. Azərbaycan hökuməti bildirir ki, CM-nin 308-ci maddəsinə Azərbaycan Respublikasının 2016-cı il 6 may tarixli 230 nömrəli Qanunu ilə dəyişikliklər edilmiş və bu qanun 2016-cı il 1 iyun tarixdə qüvvəyə minmişdir. Dəyişikliklərə əsasən, CM-nin 308-ci maddəsi bu formada *"beynəlxalq məhkəmələrin hakimləri və digər vəzifəli şəxsləri, Azərbaycan Respublikası və ya xarici ölkələrin qanunlarına, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən fəaliyyət göstərən yerli, xarici və beynəlxalq arbitrlər, xarici və ya yerli andlı iclasçılar*" qəbul edilmişdir.

9. GRECO yeni dəyişiklikləri alqışlayır və hesab edir ki, bu əvvəlki hesabatda qeyd edilən çatışmamazlıqları tam aradan qaldırmışdır.

10. GRECO iii tövsiyənin tam icra olunması qənaətinə gəlmişdir.

**Tövsiyə vii.**

11. *GRECO tövsiyə etmişdir ki, səlahiyyətli orqanlara məlumat vermiş aktiv rüşvət verən şəxslərin cəzadan avtomatik və tam olaraq azad edilməsi məsələsini təhlil edib nəticəsindən asılı olaraq təkrar nəzərdən keçirilməsi məsələsi həll edilsin*

12. GRECO bu tövsiyənin qismən icra edilməsini xatırladır. Cinayət Məcəlləsinin 312-ci maddəsinin qeyd hissəsindəki xüsusi müdafiə ilə bağlı müddəanın tətbiqi təhlil edilmiş lakin həmin hissəyə dəyişikliklərin edilməsi, o cümlədən avtomatik xüsusi müdafiənin ləğvi ilə bağlı qərarın qəbul edilməməsini bildirilir. GRECO avtomatik xüsusi müdafiə ilə əlaqədar narahatçılığını bildirir və rüşvət vermə hallarının bəzi hallarda cəzasız qala biləcəyi ilə bağlı fikirlərini qeyd edir (rüşvət verənin gələcəkdə daha çox üstünlük əldə etməsi ilə əldaqədar rüşvət alana təzyiq etməsi hallarında).

13. Hökumət bu tövsiyə ilə əlaqədar əlavə məlumat təqdim etməmişdir.

14. GRECO vii tövsiyənin qismən icra olunması qənaətinə gəlmişdir.

## Mövzu II: Partiyaların maliyyələşdirilməsində şəffaflıq

15. GRECO xatırladır ki, Dəyərləndirmə Hesabatında 2-ci mövzu ilə əlaqədar Azərbaycana 8 tövsiyə vermişdir. ii və iii tövsiyələrin tam icra olunması, iv, v, vi, vii və viii tövsiyələrin qismən icra olunması və i tövsiyənin icra olunmaması qənaətinə gəlmişdir.

**Tövsiyə i.**

16. *GRECO Seçki fondlarına dair maliyyə hesabatlarının kampaniyalara sərf olunan resurs və xərclərin daha dəqiq əks etdirməsi məqsədilə seçki kampaniyası ilə bağlı maliyyə və mühasibatlıq hesabatlarının əhatə etdiyi müddətlərinin artırılmasını tövsiyə etmişdir*

17. GRECO xatırladır ki, bu tövsiyə hələ də icra edilməyib. GRECO Dəyərləndirmə Hesabatındakı (paraqraf 84) narahatçılığını bildirərək qısa mühasibatlılıq müddətinin seçki kampaniyalarının şəffaflıq qaydalarının pozulmasına şərait yarada bilən potensial risk sahəsini olduğunu müəyyən etmiş və bu məsələnin daha sərt nəzarət yolu ilə həll edilə bilməyəcəyini xatırladır.

18. Hökumət bu tövsiyə ilə əlaqədar yeni məlumat təqdim etməmişdir.

19. GRECO i tövsiyənin icra olunmaması qənaətinə gəlmişdir.

**Tövsiyə iv.**

20. *GRECO tövsiyə etmişdir ki, (i) partiyalar öz hesbatlarını ictimaiyyətə vaxtında və asan əldə olunan şəkildə bəyan etsnilər; və (ii) siyasi partoyaların həmin şəffaflıq qaydalarına riayət etməsinə dəstəyin verilməsi yolların araşdırılıb müəyyən etsin.*

21. GRECO xatırladır ki, hazırki tövsiyə qismən icra olunmuş şəkildə qəbul edilmişdir. Hökumət qeyd edir ki, “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanuna 2014-cü ilin noyabr ayında edilən dəyişikliklər əsasən siyasi partiyalar illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə 1 aprel tarixindən gec olmayaraq Mərkəzi Seçki Komissiyasına (MSK) təqdim etməlidirlər və bu məlumatlar MSK-nın rəsmi internet səhifəsində açıqlanmalıdır. Bundan əlavə, hökumət MSK-nın 2015-ci il 15 may tarixli, 9/79 nömrəli qərarına istinad edərək bildirir ki, MSK hesabatı yoxlama başa çatdıqdan 24 saat ərzində dərc etməlidir. Qeyd edilir ki, illik hesabatlar adətən MSK-nın internet səhifəsində 3-15 gün müddətinə dərc edilir və bu məlumatlar onlayn formada əldə edilə bilir. Hökumət siyasi partiyaların maliyyə hesabatlılığı ilə bağlı siyasi partiyaların nümayəndələri üçün KİV nümayəndələrinin iştirakı ilə seminar və kursların keçirildiyini bildirmişdir. GRECO qeyd edir ki, tövsiyənin icrası ilə əlaqədar bəzi irəliləyişlər olsa da, onun tam icrası üçün bəzi tədbirlər, xüsusən də ictimaiyyətin siyasi partiyaların maliyyə hesabatlarına vaxtında girişi (əsasən da dərc olunmanın son vaxtının olmaması) və “siyasi partiyalara dəstək” kimi əlavə tədbirlər görülməlidir.

22. Azərbaycan hökuməti bildirir ki, MSK-nın #9/79[1] nömrəli qərarına edilmiş dəyişikliyə əsasən MSK siyasi partiyaların hesabatlarını qəbul etdikdən bir iş günü ərzində öz internet səhifəsində dərc edir. Bundan əlavə, siyasi partiyalara dəstəyin verilməsi məqsədilə maliyyə hesabatların şəffaflıq qaydalarına uyğun olaraq təqdim edilməsi üçün müvafiq təlimlər təşkil edilmişdir. Bunlara 2016-cı il 16 mart tarixində, həmçinin 2016-cı il 07 iyun tarixində MSK-nin Avropa Şurasının Bakı ofisi ilə birgə təşkilatçılığı ilə keçirilmiş

[1] Decree #5/18 of 13th May 2016

seminarlar daxildir[2]. Hər iki tədbirdə siyasi partiyaların, MSK, Auditorlar Palatasının, Maliyyə Nazirliyinin, Ədliyyə Nazirliyinin, QHT-lərin və KİV-in nümayəndələri iştirak etmişlər. Həmçinin, MSK siyasi partiyaların nümayəndələri ilə bir sıra ikitərəfli görüşlər keçirmişdir. MSK 2017-ci ilin 22 fevral tarixində siyasi partiyalara dəstəyin verilməsi və maarifləndirmə tədbirlərin sistemli icrası üçün 2017-2018-ci illəri əhatə edən Fəaliyyət Planı qəbul etmişdir. Bu Fəaliyyət Planı siyasi partiyaların maliyyə hesabatlılığını təkmilləşdirmək üçün praktiki tədbirləri əks etdirir. Belə ki, Fəaliyyət Planı 10 əsas istiqamətdən və ümumilikdə 18 tədbirdən ibarətdir. Hər bir tədbir üçün müvafiq icra tarixi, tədbirin icrasına məsul struktur və tərəfdaş təşkilatların adı qeyd edilmişdir. Fəaliyyət Planı ümumilikdə təlimlər, müzakirələr və hesabatların hazırlanması və təqdim edilməsi üzrə video-təlimat, şəffaflıq  və korrupsiyanın qarşısının alınması; tipik səhvlərin müəyyən edilməsi və qarşısının alınmasının metodikası; partiyaların maliyyə hesabatlarının qəbulu üçün elektron proqram təminatının hazırlanması; beynəlxalq təcrübənin öyrənilməsi kimi tədbirləri əhatə edir. Qeyd olunan tədbirlərin icrası müvafiq dövlət orqanlarının, QHT-lərin, KİV-in, ekspertlərin və beynəlxalq tərəfdaşların, o cümlədən Avropa Şurası və Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində həyata keçirilməsi nəzərdə tutulur.

23. Tövsiyənin birinci hissəsi ilə əlaqədar olaraq, GRECO MSK-nın siyasi partiyaların hesabatlarının yoxlamaq üçün tələb olunan vaxtdan asılı olmayaraq, hesabatları qəbul etdiyi gündən bir iş günü ərzində dərc etməsini alqışlayır. GRECO siyasi partiyalar tərəfindən hesabatın təqdim və dərc edilməsi qaydalarına riayət edilməməsinin 2000 manat (960 avro) məbləğində cərimə olduğunu xatırladır. Bununla da, tövsiyənin birinci hissəsinin tam icra olunmuşdur. Tövsiyənin ikinci hissəsinə müvafiq olaraq GRECO, 2017-2018-ci illər üçün keçirilməsi nəzərdə tutulmuş əlavə təlimləri və maarifləndirmə tədbirlərini yüksək qiymətləndirir.

24. GRECO iv tövsiyənin tam icra olunması qənaətinə gəlmişdir.

**Tövsiyə v.**

25. *GRECO tövsiyə etmişdir ki, (i) müvafiq qaydada siyasi partiyaların mühasibat uçotları və hesablarının müstəqil auditi təmin edilsin; (ii) (hökumət) siyasi partiyaların həmin şəffaflıq qaydalarına riayət etməsinə dəstəyin verilməsi yollarını araşdırıb müəyyən etsin.*

26. GRECO xatırladır ki, bu tövsiyə hələ də tam icra edilməmişdir. Tövsiyənin birinci hissəsinə əsaən, GRECO siyasi partiyaların illik maliyyə hesabatlarının məcburi auditdən keçirilməsi tələbini yüksək qiymətləndirir. Lakin tövsiyənin ikinci hissəsinə müvafiq olaraq, (kiçik) partiyalar barədə audit tələblərinin həyata keçirilməsində müvafiq dövlət dəstəyinin olmamasını qeyd edir.

27. Azərbaycan hökuməti bu tövsiyə ilə əlaqədar yeni məlumat təqdim etməmişdir.

28. GRECO xatırladır ki, ümumi audit tələblər kiçik partiyalar üçün yükə səbəb ola bilər və plüralist demokratiyanın inkişafına zərər yetirə bilər, bunun qarşısını almaq üçün dövlət tərəfindən siyasi partiyalara dəstəyin göstərilməsi zəruridir. Bununla da, tövsiyənin ikinci hissəsi ilə əlaqədar əlavə tədbirin görülməməsi qənaətinə gəlinmişdir.

29. GRECO v tövsiyənin qismən icra olunması qənaətinə gəlmişdir.

[2] In the framework of Joint CoE/EU project "Strengthening capacities to fight and prevent corruption in Azerbaijan"

**Tövsiyə vi.**

30. *GRECO tövsiyə edir ki, (i) siyasi partiyaların və seçki namizədlərinin seçki fondları barədə maliyyə hesabatların daha əsaslı və proaktiv (müraciət daxil olmadan) monitorinqi, o cümlədən təqdim edilmiş məlumatın mahiyyəti üzrə yoxlanılması və maliyyə pozuntularının istintaq edilməsi təmin edilsin, (ii) seçki komissiyalarının seçki kampaniyaların maliyyələşdirilməsinə nəzarətlə bağlı müstəqilliyi gücləndirilsin*

31. GRECO xatırladır ki, bu tövsiyə icra olunmamış kimi qalmışdır. Tövsiyənin birinci hissəsinə MSK-nın nəzarəti altında seçki fondlarının monitorinqinin mərkəzləşdirilməsi (əlavə kadr və nəzarət imkanları ilə təmin edilməsi), həmçinin proaktiv monitorinq üçün seçki komissiyaları ilə koordinasiya üçün zəruri potensialın inkişafı məsələsi öz həllini tapmışdır. Tövsiyənin ikinci hissəsinə gəldikdə isə, GRECO seçki komissiyalarının tərkibində problemlərin nizamlanmasında irəliləyişin olmamasını qeyd edir (bu Dəyərləndirmə Hesabatında artıq qeyd edilmişdir). Seçki komissiyalarının 18 üzvünün (o cümlədən, MSK-nın özündə olanlar) namizədliyi Milli Məclis tərəfindən irəli sürülür və təyin edilir (altısı çoxluq təşkil edən partiya, altısı müstəqil millət vəkilləri arasından və altısı azlıq təşkil edən partiyalar tərəfindən).

32. Hökumət bu tövsiyə ilə əlaqədar yeni məlumat təqdim etməmişdir.

33. GRECO seçki kampaniyası maliyyələşdirilməsinin nəzarəti ilə bağlı seçki komissiyalarının müstəqilliyi ilə əlaqədar irəliləyişin olmamasını bildirir.

34. GRECO vi tövsiyənin qismən icra olunması qənaətinə gəlmişdir.

**Tövsiyə vii.**

35. *GRECO seçki kampaniyaların maliyyələşdirilməsinə monitorinq ilə lazımınca əlaqələndirilmiş qaydada siyasi partiyaların ümumi maliyyələşdirilməsinə müstəqil və əsaslı monitorinqin təsis edilməsini tövsiyə etmişdir.*

36. GRECO xatırladır ki, bu tövsiyə qismən icra edilmişdir. GRECO MSK-nın rəhbərliyi ilə siyasi partiyaların maliyyə şəffaflığı üzrə monitorinq qaydalarının və prosesinin təkmilləşdirilməsi ilə əlaqədar 2014-cü ilin noyabr ayında həyata keçirilən qanunvericilik islahatları, o cümlədən MSK-nın resursları, strukturu və kadr potensialının artırılması ilə əlaqədar olan müsbət dəyişikliklərini alqışlayır. Lakin GRECO-nun siyasi partiyalardan müstəqil hesab edilməsinə əngəl olan MSK-nın müvafiq siyasi partiyaya mənsub tərkibi barədə (seçki komissiyalarının da olduğu kimi) narahatlılığını qeyd edir.

37. Hökumət bu tövsiyə ilə əlaqədar yeni məlumat təqdim etməmişdir.

38. GRECO yeni heç bir məlumatın təqdim edilmədiyi üçün vii tövsiyənin qismən icra olunduğu qənaətinə gəlmişdir.

**Tövsiyə viii.**

39. *GRECO seçki kampaniyalarının və ümumilikdə siyasi partiyaların maliyyələşdirilməsinin şəffaflığına dair qaydaların pozulması ilə bağlı hüquqpozmaların dəqiq müəyyən edilməsi və həmin hüquqpozmalara görə təsirli, mütənasib və qarşısını alan cəzaların müəyyən edilməsini, xüsusilə mövcud cəza növlərinin artırılması yolu ilə, tövsiyə etmişdir*

40. GRECO xatırladır ki, bu tövsiyə qismən icra edilmişdir. 2012-ci ildə İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklərə əsasən, siyasi partiyaların maliyyə hesabatlarının tərtib edilməməsi müvafiq inzibati cəriməyə səbəb olur. Lakin GRECO bu sanksiyaların daha da sərtləşdirilməsini təklif edir (mühasibat cinayətlərinə çox aşağı sanksiyalar tətbiq edilir). Siyasi partiyaların maliyyə şəffaflığına dair hüquqpozmaların dəqiq müəyyən edilməsi ilə əlaqədar isə irəliləyişlər əldə edilmişdir.

41. Azərbaycan hökuməti bildirir ki, 2015-ci il 29 dekabr tarixdə İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklərə əsasən, seçki kampaniyası maliyyələşdirilməsi ilə əlaqədar pozuntular ilə bağlı sanksiyalar artırılmışdır[3]. Seçkilərin (referendumun) maliyyələşdirilməsinin qaydalarının pozulmasına görə inzibati cərimələr fiziki şəxslər üçün 10-20 manatdan (5-10€) 300-500 manatadək (143-240€); vəzifəli şəxslər üçün 44-60 manatdan (21-29€) 1500-2000 manatadək (714-960€) və hüquqi şəxslər üçün 150-250 manatdan (71-119€) 5,000-7,000 manatadək (2,381-3,360€) artmışdır. Bundan əlavə, seçkilərin hazırlanmasına və keçirilməsinə ayrılmış vəsaitlərin xərclənməsi barədə namizədlər, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları, referendum üzrə təşviqat qrupları tərəfindən maliyyə hesabatlarının təqdim və ya dərc edilməməsinə görə inzibati cərimə 20-30 manatdan (10-14€) 1,000-2,000 manatadək (476-960€) artmışdır. Müxtəlif maraqlı tərəflərlə müzakirələr və onların rəylərindən sonra MSK siyasi partiyaların maliyyələşdirməsində şəffaflığın artırılması üçün əlavə tədbirlərin həyata keçirilməsi qərarına gəlmişdir.

42. GRECO İnzibati Xətalar Məcəlləsinə yuxarıda göstərilən dəyişikliklər nəticəsində kampaniyaların maliyyələşdirməsi qaydalarının pozulmasına görə son zamanlarda artırılmış cərminə alqışlayır. Lakin, GRECO siyasi partiyaların maliyyələşdirilməsi qaydalarının pozulmasına görə tətbiq edilən sanksiyaların hələ də səmərəli, mütənasib və çəkindirici olmaması qənaətinə gəlir.[4] Seçki Məcəlləsinin 14-cü fəsilində İXM-nin bu müddəalarına aid heç bir istinad əlavə edilməmişdir. Nəhayət, İkinci Dəyərləndirmə Hesabatda qeyd olunduğu kimi, mühasibat qaydaları ilə bağlı hüquqpozmalar da daxil olmaqla, siyasi partiyaların maliyyələşdirilməsi ilə bağlı sanksiyalar barədə "Siyasi partiyalar haqqında" qanunda heç bir müddəa əlavə edilməmişdir. Azərbaycan tövsiyənin tam həyata keçirilməsi üçün öz səylərini davam etdirməlidir.

43. GRECO belə qənaətə gəlmişdir ki, viii tövsiyə qismən icra olunmuşdur.

## III. YEKUN MÜDDƏALAR

44. **Əvvəlki Üçüncü Dəyərləndirmə raunduna dair hesabatda qeyd olunan müddəalar, həmçinin yuxarıda qeyd olunanları nəzərə alaraq, GRECO belə nəticəyə gəlir ki, bü günə qədər Azərbaycan Üçüncü Dəyərləndirmə raunduna dair hesabatda öz əksini tapmış 17 tövsiyədən 11-ni tam icra etmiş və ya icrası istiqamətində uğurlu addımlar atmışdır.** Digər tövsiyələrdən 5-i qismən icra edilmiş və yalnız 1 icra edilməmişdir.

45. Daha konkret, 1-ci mövzu - kriminallaşdırma mövzusu üzrə i, ii, iii, iv, v, vi, viii və ix tövsiyələr qənaətbəxş icra olunmuş, vii tövsiyə qismən icra olunmuş; ii mövzu olan Siyası partiyaların maliyyə şəffaflığı bölməsinə münasibətdə ii, iii və iv qənaətbəxs

[3] 177.1. Seçkilərin (referendumun) maliyyələşdirilməsinin Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydalarını pozmağa görə- fiziki şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.
[4] Siyasi partiyalar haqqında qanunvericiliyin pozulmasına görə sanksiyalar Azərbaycanla bağlı İkinci uyğunluq hesabatda sənədləşdirilmişdir. Onlar 2015-ci ildə yeni qəbul edilmiş İnzibati Xətalar Məcəlləsində eyni cür qalır.

şəkildə icra olunmuşdur. v,vi, vii və viii qismən icra olunmuş olaraq qalır, i tövsiyəsi icra olunmamışdır.

46. I mövzu olan (kriminallaşdırmaya dair) Azərbaycan Hesabatda qeyd olunmuş tövsiyələrin böyük əksəriyyətini tam icra etmişdir. Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında Konvensiyaya ilə uyğunluq irəliyə doğru atılmış böyük addım olsa da, səmimi peşmanlıqla bağlı əlavə tədbirlərin görülməməsi qeyd edilməlidir; digər vacib məsələlərdən biri isə rüşvət verən şəxslərin cinayət məsuliyyətindən kənar qalma imkanları ilə bağlıdır.

47. Bu günə qədər nəzərdən keçirilən II mövzu (siyasi partiyaların maliyyə şəffaflığı) üzrə nəticələr nisbətən az təqdirəlayiqdir. Bu sahədə təkmilləşdirmə istiqamətində bəzi addımlar atılmışdır, o cümlədən siyasi partiyaların maliyyə mənbələrini izləmək üçün siyasi partiyaların müvafiq hesabat vermək öhdəliyi müəyyən edilmişdir, bu isə qeyd olunan sahənin daha şəffaf olması üçün şərait yaratmışdır. Bununla belə, bir çox sahələrdə, o cümlədən tərəflərin maliyyə şəffaflığına dair hesabatların yoxlanılması üçün zəruri olan seçki kampaniyalarının maliyyə/mühasibət hesabatlılığı müddətinin azadılması sahəsində yeni təşəbbüs irəli sürülməmişdir. Bundan əlavə, siyasi partiyaların maliyyələşməsi üzərində effektiv və obyektiv nəzarətin təşkil edilməsi məqsədi ilə Mərkəzi Seçki Komissiyasının və seçki komissiyalarının subyektiv ərkibinin müəyyən edilməsi məsələsi də həll olunmamış qalır. GRECO, həmçinin qeyd edir ki, son dövlərdə qeydə alınmış əhəmiyyətli inkişafa baxmayaraq, sanksiyaların vahid sisteminin mövcud olmaması maliyyəşmə qaydalarının müxtəlif pozuntu hallarından qorunmağa imkan verən aydın siyasi maliyyələşmə qaydalarının müəyyən edilməsinə imkan vermir.

48. GRECO, həmçinin bir daha bildirir ki, həqiqi siyasi plüralizm və rəqabətli təşviqatın yoxluğu şəraitində həyata keçirilən seçki kampaniyaları ilə səciyyələnən siyasi landşaftla bağlı (Hesabatın 82-ci bəndi) dayanıqlı şəffaflıq sisteminin mövcudluğunun təmin edilməsi üçün mühüm əhəmiyyətə malik olan ümumi tövsiyələri Azərbaycana verməklə kifayətlənmişdir ki, həmin tövsiyələrin icrası gələcəkdə inkişaf üçün zəruri şərait yaradacaqdır. İslahatlar prosesi tələb edir ki, demokratik sisteminin fundamental elementi olan, vətəndaşların siyasi iradəsinin təcəssümü hesab edilən siyasi partiyaların maliyyələşməsinin şəffaflığının artırılması istiqamətində müvafiq addımlar atılsın. GRECO bir daha Azərbaycanı İkinci mövzuya dair verilmiş 8 tövsiyədən tam icrası gecikən digər 5 tövsiyəni icra etməyə çağırır.

49. İkinci Uyğunluq Hesabatına ikinci əlavənin qəbul edilməsi ilə Azərbaycan üzrə Üçüncü dəyərləndirmə raundu uğurla yekunlaşmışdır.

50. Nəhayət, GRECO Azərbaycan hökümətini mümkün qədər qısa müddət ərzində hesabatı dərc etməyə, onun milli dilə tərcümə etməyə və hesabatın ictimaiyyət üçün açıq etməyə çağırır.